# HƏKİM, CƏMİYYƏT, XƏSTƏ: MƏNƏVİYYATVƏ FƏAL HƏYAT MÖVQEYİ

*(ön söz əvəzi)*

Müasir təbabətin inkişafı elə yüksək zirvələrə qalxıb ki, otuz-qırx il öncə bu fərziyyə, hətta həyata keçməz bir arzu kimi qəbul oluna bilərdi. Hal-hazırda qazanılan bu nailiyyətlər adi bir iş kimi sakitcə qəbul edilir (görünür insan təbiəti belədir). Halbuki yaxın zamanlara qədər insanın müxtəlif daxili üzvlərinin: ürəyin, böyrəyin transplantasiyası, ürək damarlarının dəyişdirilməsi, baş-beyin və magistral damarların üzərində aparılan cərrahi əməliyyatlar insanı heyrətə gətirirdi. Artıq bütün bunlar hamısı bəşəriyyətin dünənki günüdür. Bu gün isə təbabət lap nağıllarda olan cəngavərlər, qəhrəmanlar kimi saatbasaat, günbəgün inkişaf edir, təkmilləşir. Təbabət gələcəyə yönəlib və onunla yaşayır, irəliləyir. Yeniliklər, ixtiralar, kəşflər, həssas, incə elektron cihazlar təbabətdə uğurla tətbiq edilir.

Bir az obrazlı şəkildə desək, təbabətin ağ xalatı müəyyən sərhədlər daxilində elmlərdən dəqiq ayrılır, insan biliyini, təfəkkürünü diri orqanizm haqqında zənginləşdirərək, onun daha yaxşı inkişafı üçün əminliklə resept verməyə köməklik edir.

Lakin müalicə və diaqnostikanın texniki təminatı nə qədər mükəmməlləşsə də, həmişə olduğu kimi insan sağlamlığı keşiyində duran canlı həkim əsas yeri tutur. Təbabət gündən-günə inkişaf edir, o dəyişməyə, yeniləşməyə bilməz, yeganə dəyişməyən həkimin qarşısında duran yüksək mənəvi etik, peşəkarlıq tələbləridir. Bizim ölkədə zəhmətkeşlərin mənəvi tərbiyəsi üçün hər cür şərait yaradılıb. Dövlətimiz cəmiyyətin sosial-iqtisadi inkişafının təkmilləşdirilməsi məsələsinə mühüm diqqət yetirir. Mənəvi-siyasi iqlim yaxşılaşdıqca hər bir insanın bacarıq və istedadını, onun dünya sivilizasiyasının mənəvi-mədəni zənginliklərinə yiyələnmə cəhdini artırır.

Əxlaqi tərbiyə həyat tərzinin hərtərəfli təkmilləşdirilməsi ilə sıx əlaqəlidir. Bu pro-sesdə ictimai borca şüurlu münasibət, fəal həyat mövqeyi formalaşır. Sözlə işin vəhdəti gündəlik davranış normalarında təşəkkül tapır. Buna görə də insan həyatında əsas məsələlərdən biri davranışda mənəvi amil, əqidəsinin onun işində və əməllərində təzahür etməsidir.

Tərbiyəyə elə bir müddəanı tətbiq etmək olar ki, ideyalar kütlələr tərəfindən qəbul edilir, mənimsənilir. İnsanlar arasındakı münasibətin əsas tənzimləyicisi kimi, əmək və ictimai siyasi fəaliyyətin güclü stimul, cəmiyyətin tərbiyəsində tam təcəssüm olunmuş sosial-müsbət əxlaqi qiymət və normaların əhəmiyyəti barədə fəlsəfənin baniləri dəfələrlə qeyd etmişlər. Eyni zamanda qeyd etmək lazımdır ki, əxlaq həyat tərzini müəyyən edən yeganə amil deyildir.

Şəxsiyyətin davranışının mümkün dəlillərinin müxtəlifliyini, filosoflar demişkən, alimlər səciyyələndirərək yazırlar: «İradə ehtirasla və ya düşüncə ilə müəyyən olunur. Lakin vasitələr öz növbəsində bilavasitə ehtiras və ya düşüncəni müəyyən edən çox müxtəlif xarakterdə olurlar. Bunlar qismən zahiri məqsədlər, qismən də ideal meyllər, şöhrətpərəstlik, «paklığa, həqiqətə ibadət», şəxsi nifrət və ya hətta hər cür fərdi şıltaqlıqlar ola bilər».

Hər bir şəxsiyyətin sosial-ictimai dəyərli davranışında mənəvi stimullar geniş yer tutur: sadiqlik, ictimai vəzifənin yüksək şüurla dərk edilməsi, mənəviyyatımızın normalarının və prinsiplərinin dərindən mənimsənilməsi. Bu mənəvi stimullar fəaliyyət zamanı qarşıya qoyulan məqsəddə təyinedici kimi rol oynayırlar, başqa heç biri ilə uyğunlaşmırlar (məsələn, şəxsi maddi maraqla). Kütləni yalnız iradə, ruh yüksəkliyi hesabına aparmaq olmaz. Lakin ruh yüksəkliyinin böyük, çox böyük əhəmiyyəti var. Mənəvi ideya məqsədləri bilavasitə şəxsi maraqlandırma ilə möhkəmləndirilə bilər, ancaq onunla əvəz edilə bilməz.

İnsanın hərtərəfli mənəvi inkişafı cəmiyyət quruculuğunun başlıca məqsədlərindən biridir. İnsanın əqidəli, mənəvi inkişafı eyni zamanda qazandığı çox böyük müstəqil dəyərdir - axı insan şəxsiyyətinin hərtərəfli və harmonik inkişafı ən yüksək məqsədlərdəndir.

Zəhmətkeşlərin mənəvi tərbiyəsinə kompleks yanaşma tələblərinin reallaşdırılması üçün tərbiyə proseslərinin elmi idarə edilməsi tələb olunur: şəxsiyyətə məqsədyönlü təsir üsullarının işlənilməsi, proqnozlaşdırılması və s. Bu məsələlərin həlli zəhmətkeşlər tərəfindən peşəkar mənəviyyat prinsiplərinin mənimsənilməsindən asılıdır. Müəyyən sənət birliyi üzvlərinin mənəvi keyfiyyətləri, tənzimetmə prinsipləri və davranış xüsusiyyətlərinin iradəsi kimi şəxsiyyətin fəal həyat mövqeyinin formalaşmasında xüsusi rol oynayır.

Professional mənəviyyatın fəal həyat mövqeyinin formalaşmasına təsiri onun normalarının həmin peşənin subyektlərinin daxili aləminə interlorizasiyası vasitəsilə həyata keçir. O, peşəkar qərarın seçilməsi və onun ictimai və şəxsi maraqlarının birləşdirilməsi planında əməli reallaşdırılmasına imkan yaradır, insanı qiymət-imperativ normalarla silahlandırmaqla, şəxsiyyətin sosial istiqamətləndirilməsini təshih edir. Peşə mənəviyyatı şəxsiyyətin davranışının bilavasitə tənzimləyicisi kimi önə çıxır, ona görə ki, biliklərin məsləkə, məsləklərin isə əməli fəaliyyətə çevrilməsi mexanizmi kollektivin mənəvi psixoloji ab-havasından, bu kollektiv üzvlərinin peşə-əqidə qarşılıqlı münasibətinin real normalarından asılıdır. Həm də qeyd etmək lazımdır ki, peşə mənəviyyat tərbiyəsi bu peşə üçün səciyyəvi olan mənəvi sərvətləri cəmləyir, əxlaqi ənənələrin ardıcıllığını təmin edir. Onsuz şəxsiyyət öz fəaliyyətinin əxlaqi mənasını dərk edib, mənimsəyə bilməz və həmin sənətin, o cümlədən həkimliyin, əxlaqi ənənələrinə yad olan mənəviyyatla fəal mübarizə apara bilməz.

Peşə mənəviyyatı həmin peşə birliyinin mütərəqqi ənənə və maraqlarını nə qədər ifadə edirsə, bir o qədər fəal həyat mövqeyində öz əxlaqi tələblərinin təmsil olunmasını diktə edir. Bunun iki aspekti var: əxlaq-dəyərin təsdiqi kimi sosial mənalı fəallıq və peşə tərbiyəsi prinsiplərinə zidd olanların hamısı ilə mübarizə kimi sosial mənalı fəallıq.

İctimai inkişafın dialektikası özü insanın ideya-əxlaqi keyfıyyətlərinin sonrakı təkmilləşdirilməsini tələb edir. Və bu məqsədə çatmaq üçün kompleks yanaşma tələb olunur. Söhbət ideya-siyasi, əmək və əxlaq tərbiyəsinin sıx birləşməsindən gedir.

Müasir mərhələdə əxlaq tərbiyəsi xüsusi məna daşıyır. Bu onunla əlaqədardır ki, həyata yeni nəsil gəlir. Problemin aktuallığı təlatümlü elmi-texniki inqilab əsrində xüsusi əhəmiyyət kəsb edir. Əmək yaradıcılıqı və fəallıq, şəxsiyyətin mənəvi etibarlığı kimi əxlaqi müddəalar, kateqoriyalar cəmiyyətin iqtisadi və mənəvi yüksəlişinin əsas tənzimləyicisi olurlar.

Bu keyfiyyətlər bütünlüklə bizim cəmiyyətin ən müxtəlif sosial təbəqələrinin nümayəndələrinə, o cümlədən həkimlərə aiddir. Amma bu, peşə etikasının varlığını istisna etmir. Bütün insanlar kimi həkimlər də müxtəlif olur. Bəziləri elə hesab edirlər ki, həkimlərin əxlaqı və davranış xüsusiyyətləri barəsində danışmağa əsas yoxdur. Lakin bu səhv mülahizədir.

F.Engels L.Feyerbaxı qanun nəzəriyyəsinin bütün zamanlar, bütün xalqlar, bütün vəziyyətlər üçün nəzərdə tutulmasına və bununla əlaqədar heç yerdə, heç vaxt qəbul edilə bilməməsinə görə tənqid edirdi. F.Engels qeyd edirdi: «Həqiqətdə hər sinif və hətta hər sənət özünün xüsusi mənəviyyatına malikdir».

İctimai formasiyadan asılı olaraq səhiyyənin funksiyası və ictimai əhəmiyyətliliyi müxtəlifdir.

Qeyd etmək lazımdır ki, səhiyyənin təşəkkül mənbə prinsipləri özündə dövlətçilik xarakteri, aramsız və ardıcıl inkişaf: əhalinin ixtisaslaşmış tibbi yardımdan istifadə edə bilməsi, səhiyyənin profılaktik istiqaməti, elmlə təcrübənin vəhdəti və nəhayət həkimliyin yüksək mənəvi-əxlaqi keyfıyyətlərini birləşdirmişdir.

Səhiyyənin sosial əsaslarını - insanların xəstələnməsi və sağlamlığı şərtlərini, maddi nemətlərin istehsalının müəyyən üsulu ilə, istehsalın bu və ya digər üsulunun inkişaf qanunları ilə, cəmiyyətin iqtisadi və siyasi quruluşu ilə əlaqələndirirlər. Milyon-milyon insanların kütləvi şəkildə məhv olması, müharibə və aclıqdan xilası sosial-ictimai quruluşdan asılıdır.

Ümumiyyətlə, ən vacib sosial məsələlərdən biri insanların sağlamlığının qorunmasıdır. Ona görə ki, sosial mühitdə insanın əməli, mənəvi-əxlaqi mövqeyi, düşüncəsi, əhval-ruhiyyəsi, dünyaya baxışı, özünə və Yer Kürəsində məskunlaşmış özü kimilərinə münasibət yetişdirir və formalaşdırır. Belə şəraitdə mənəvi tərbiyənin əhəmiyyəti hədsiz olaraq artır. Fəal həyat mövqeyi, ictimai vəzifəyə düşüncəli münasibət və işlə, sözün vəhdəti, davranışın gündəlik normaya çevrilməsi şəxsiyyəti çox yüksəldir.

Hər bir ölkə öz əhalisinin sağlamlığının yaxşılaşdırılması və qorunması qayğısına qalmağı öz ana konstitusiyasında xüsusi maddələrdə göstərməlidir. Bunlar adətən sosial-iqtisadi və tibbi tədbirlər vasitəsilə yerinə yetirilir. Belə bir xalq kəlamı var: «Sağlam bədəndə sağlam ruh olar». Səhiyyə işçiləri ilə əməli olaraq hər bir adam əlaqəlidir. Həkim dünyaya gələsi körpə vətəndaşın yolunu gözləyir, körpəyə ilk addımları atmaqda köməklik edir, insanın gözü qarşısında dünyanın bütün rənglərini və geniş üfüqləri açır, qayğıkeşliklə onun fiziki və ruhi sağlamlığını möhkəmləndirir. Səhiyyə xidmətinin əxlaqi ab-havasından, həyat fəaliyyətindən və səmərəliliyindən milyonlarla insanın ruhi əhvalı, və deməli, bizim işimizin uğurlu nəticələri çox asılıdır.

Biz fəxr ilə qeyd edə bilərik ki, XX əsrin əvvəlinə nisbətən, indi bizim respublikada həkimlərin sayı ağlasığmaz dərəcədə çoxalıb. Əsrin əvvəlində iki milyondan çox əhalisi olan Azərbaycanda cəmi beş-on həkim var idi. Epidemiyalar, antisanitariya, aclıq, yoxsulluq on minlərlə həyata son qoyurdu. Təbabət insana kömək etməkdə aciz idi. XXI əsrə biz böyük həkim, tibb alimləri ordusu ilə daxil oluruq. Hal-hazırda əhalinin hər 10 min nəfərinə düşən həkimlərin sayına görə Azərbaycan nəinki Şərq ölkələrindən, hətta inkişaf etmiş İngiltərə, Fransa, Almaniya kimi ölkələrdən qabaqdadır. İndi biz Şərq xalqları üçün bütün sahələrdə nümunəvi olan bir respublikaya çevrilmişik.

İndi respublikamızın səhiyyəsində də bir sıra islahatlar aparılır. Səhiyyənin inkişafı xalqımızın rifahının gələcəkdə də yüksəlməsinə, onların əmək və məişət şəraitinin yaxşılaşdırılması ilə bərabər, yeni insanın formalaşmasına, şəxsiyyətin hərtərəfli inkişafına, həyat tərzinin təkmilləşdirilməsinə imkan yaradacaqdır.

Əxlaqi tərbiyə və təbabət insanların səmərəli tələbatının əsaslandırılmasında qarşılıqlı fəaliyyət göstərir, əmək fəaliyyətinin psixo-fizioloji və sanitar normalarını müəyyən edir, ümumi və şəxsi həyatda sağlam həyat tərzini, adət və davranış qaydalarını təsdiqləyir.

Çox düzgün fikirdir ki, insanın səadəti üçün elmi axtarış və bilavasitə onun gündəlik qayğısı, təbabət və səhiyyə ilə çox sıx əlaqəlidir. Təqdim olunan kitabçanın məqsədi - bu dərin mülahizələrin əxlaqi nöqteyi-nəzərini müəyyən dərəcədə açmaqdır.

*Akademik Zərifə xanım Əliyeva*
*Yüksək əqidə (həkimlik etikası, həkimin ürəyinin və fikirlərinin paklığı)*
*“Azərbaycan” nəşriyyatı, Bakı, 2003, səh. 7-19*

## О МОРАЛЬНОМ ОБЛИКЕ ВРАЧА

*(с сокращениями)*

На современном этапе вопросы нравственного воспитания обретают особую значимость. Это вызвано тем, что в жизнь вступают новые поколения людей. Актуальность проблемы особенно возрастает в бурный век научно-технической революции.

Говорят, врач не создает материальных ценностей. Это верно, но лишь отчасти. Он создает высшую материальную и духовную ценность нашего общества – здоровье его труженика, созидателя, борца.

Долг и призвание тружеников отечественной медицины – всегда беззаветно служить людям.

Если задаться вопросом, каков нравственный фундамент активной жизненной позиции врача, то ответ будет предельно краток – отношение к больному! Только тот истинный врач, для которого страдания больного – собственное страдание, а улыбка человека, вернувшегося

в рабочий строй, к жизни – высшая награда. И потому для него каждый прием, каждая беседа с человеком, пораженным недугом, - моральная ответственность и перед больным, и перед обществом. И главное – перед собственной совестью, нашим главным судьей. Работать так, чтобы выдержать строгий суд собственной совести – это счастье.

Истинный врач сочувствует больному, недуг больного – его собственная боль. И когда человек, потерявший здоровье, обретает его, как бы заново возвращается к жизни и врач. В этом, собственно, заключаются нравственные устои нашей гуманной профессии. «Нет более благородной профессии, чем профессия врача; ведь вам больной вверяет здоровье, а часто и всю жизнь, - писал», Н.А. Семашко.

Вера больного в силу врача, в эффективность лечения известны давно. Но всегда ли мы помним, что встреча с больным - процесс двусторонний? Пока врач исследует больного, его собеседник по-своему изучает врача. За короткий период общения с больным врач получает представление о его заболевании. Но и у больного складывается мнение о самом враче, причем иной раз неблагоприятное, основанное на поведении врача, на его разговоре, а иногда на отдельных мелочах, которые врач вовсе не замечает. И тогда ослабевают невидимые душевные струны между ним и больным, угасает доверие к врачу. А его необходимо заслужить и для эффективности лечения, и для поддержания душевного равновесия человека, пораженного недугом.

Важное значение имеет правильное, рациональное, умелое, тактичное назначение лекарств. Арсенал медикаментов ежегодно растет. Только одних антиангинозных средств, как подчеркивает акад. Е.И.Чазов, в настоящее время насчитывается более 100. Иной раз больной просит выписать препарат, о котором врач даже не слышал. И вот тут-то может появиться формула, иногда справедливая, а часто защитная. «С новыми лекарствами будьте осторожнее», - отечески советует врач, прикрывая словами незнание нового препарата. Только ли незнание? Может быть, если судить по законам морали, и душевную лень? Во всяком случае, вряд ли от этой обтекаемой формулы возрастет доверие пациента к человеку в белом халате. Не только профессиональный, но высший моральный долг врача - учиться, причем учиться всю жизнь, повышать квалификацию, следить за литературой, умело использовать свои знания в практической деятельности.

Есть и другое важное лекарство, значение которого трудно переоценить. Это «душевное лекарство»- ободряющее слово, обращенное к больному. И.П.Павлов подчеркивал, что «слово есть для человека такой же реальный раздражитель, как и все остальные, но вместе с тем и такой многообъемлющий, как никакие другие... Слово, благодаря всей предшествующей жизни человека, связано со всеми внешними и внутренними раздражителями, приходящими в большие полушария». Слово, утверждал И.П.Павлов, может вызвать все реакции организма, которые вызывают обычные раздражители.

Все мы по собственному опыту знаем, как жадно больной ловит слово врача. Знаем о том, что медицинские термины, употребляемые врачом в присутствии больного, могут вызвать у него подозрения, мрачное настроение. Неосторожное слово врача может привести к заболеваниям. Нравственность медицинского работника, очевидно, состоит в том, что, обследовав больного, он должен указать ему на характер болезни и назначить нужный режим и лечение, сделать это уважительно, тактично, мягко, сердечно, чтобы не травмировать больного, обдумывая и взвешивая каждое свое слово.

В свое время в « Записках врача» В.В.Вересаев писал: «В начале я был настолько наивен и молодо прямолинеен, что при настойчивом требовании говорил больному правду. Только постепенно я понял, что в действительности значит, когда больной хочет правды, уверяя, что не боится смерти. Это значит: «Если нет надежды, то лги мне так, чтобы я поверил».

В равной мере важно умение не только быстро и точно поставить диагноз, но и выслушать больного, понять его сердцем, помочь всячески. С этой активной врачебной позиции начинается неустанный бой, порой отнимающий и физические, и духовные силы, за возвращение человека к жизни в широком смысле слова. Разве не в этом высокий гуманный смысл клятвы Гиппократа, которую из поколения в поколение принимают врачи?

Очень важен внешний облик врача. Печальное и неприветливое лицо врача угнетает больного. Он ждет сопереживания, а встречает скуку, ждет приветливости, а ощущает спешку, ждет участия, но наталкивается на завету, и в итоге наносится удар по психологическому состоянию больного.

Не менее важная часть идейно-нравственного воспитания – это установление добросердечных отношений в медицинском коллективе. Интересно, сколько прекрасных понятий берут истоки в простом русском слове «добро»: добросовестность, добропорядочность, доброжелательность, добродушие. Для советского врача эти понятия норма товарищеских отношений в коллективе. Но если их нет, если они поколеблены, то страдают больные. Самомнение, заносчивость, неуважение к товарищам, к сожалению, еще встречаются в поведении некоторых врачей, поэтому необходимо усилить нравственное воспитание в коллективах медицинских учреждений.

В свете сказанного заслуживает особого внимания вопрос о так называемых врачебных ошибках и об отношении к ним врачей. «Жизнь коротка, путь искусства долог, удобный случай скоро-преходящ, опыт обманчив, суждение трудно, - писал Гиппократ, - людские нужды заставляют нас решать и действовать. Но если мы будем требовательны к себе, то не только успех, но и ошибка станет источником знания».

Вряд ли мы найдем такого врача, который мог бы с чистой совестью сказать, что за свою врачебную жизнь не допустил ни одной врачебной ошибки. Врач, разумеется, должен избегать ошибок. Но, допустив, не должен прятаться от них. Только слабые духом боятся открыто признать ошибку. Признать же значит найти в себе силы исправить ее быстро, решительно, не во вред, а на пользу страждущего человека.

Самое страшное зло для больного, которое может исходить от человека, надевшего халат врача, это равнодушие. В старый мир себялюбия, разобщенности и корысти уходит своими истоками равнодушие, которое Лев Толстой называл душевной подлостью. Для нас, медиков, борьба с равнодушием имеет двоякое значение. Речь идет о нетерпимом, обостренном отношении к равнодушию врача, которому человек доверяет высшую ценность – жизнь. Борьба с социальным равнодушием – это в конечном счете борьба за физическое и моральное здоровье человека.

*Академик Зарифа ханум Алиева*
*Сборник научных трудов*
*Баку, Изд. «Азербайджан», 1998, с.179-184*

# ON THE MORAL CHARACTER OF THE DOCTOR
*(abridged)*

At the present stage issues of moral education take on special significance. This is because new generations of people enter upon life. The topicality of the problem particularly increases in the violent age of scientific and technological revolution.

They say the doctor does not create wealth. This is true, but only partly. The doctor creates the highest material and spiritual value of our society - the health of its worker, builder, and fighter.

The duty and vocation of the workers of national medicine are to always selflessly serve the people.

If you wonder what the doctor’s moral foundation of an active life stance is, the answer will be very brief – it is relationship to the patient! Only that one is a true physician, for whom the suffering of the patient is his own misery, and the smile of a man who has returned to working order and to life is the highest award. And so every reception, every conversation with an afflicted person for him is moral responsibility to both the patient and society. And the most important is to his conscience, our chief justice. To work so as to withstand rigorous trial of our own conscience - this is happiness.

The true physician sympathizes with the patient; patient's illness is his own pain. And when the afflicted man recovers, it is as if a doctor comes back to life, too. These, in fact, are the moral foundations of our humane profession.

«There is no more noble profession than the medical profession; because a patient entrusts his health and often life to you", Semashko N.A. wrote.

The faith of a patient in the doctor's power, his efficacy of treatment has been known for long.

But do we always remember that a meeting with patients is a two-way process? While the physician examines the patient, his companion studies the doctor in his own way. Within a short period of communication with the patient the doctor gets an idea of his illness. But the patient develops an opinion about the doctor, too, and sometimes negative, based on the behavior of the physician, on his conversation, and sometimes on separate small things that the doctor does not notice. And then invisible soul strings between him and the sick weakens, confidence in the doctor declines. And it must be earned both for the efficiency of treatment, and to maintain mental balance of the afflicted person.

The correct, rational, skillful and tactful prescribing has an important implication. The arsenal of medicines grows every year. There are currently more than 100 antianginal agent, as the academician Chazov E.I. says. Sometimes a patient requests to prescribe a drug which a doctor has not even heard about. And it is here that the formula may appear, sometimes valid and often defensive.

«Be careful with new drugs», the doctor advises fatherly, covering the ignorance of the new drug with these words. But is it only the lack of knowledge? Maybe, if judged by the laws of morality, also the mental laziness? In any case, it is unlikely that this streamlined formula will increase the trust of a patient to a man in a white gown. Not only professional, but the highest moral duty of the doctor is to learn, and to learn lifelong, develop, monitor the literature, use their knowledge in practice skillfully.

There is another important medicine the value of which cannot be overestimated. This «mental medicine» is an encouraging word to the patient. Pavlov I.P. emphasized that «the word for a person is as a real stimulus as everything else, but at the same time as many comprehensive as no other one... A word thanks to the whole previous life of a man is associated with all internal and external stimuli coming to the big hemispheres». The word, Pavlov I.P claimed., can call all reactions of the organism, which are caused by ordinary stimuli.

We all from our own experience know how eagerly the patient catches the word of the doctor.

We know that the medical terms used by the physician in the presence of the patient may make him suspicious, somber mood. Negligent word of the doctor can lead to diseases. The morality of health care worker is, obviously, that having examined the patient, he should tell him the nature of the disease and designate the desired mode and treatment, and he should make it respectfully, tactfully, gently, warmly, not to hurt the patient, considering and weighing every word.

In his time in the "Notes of the doctor» Veresaev V.V. wrote: «At the beginning I was so naive and youthfully straightforward, that under the pressure of the patient told him the truth. Only with time I realized what in reality it means when the patient wants the truth saying that he is not afraid of death, it means: «If there is no hope, lie to me so that I could believe you».

The ability not only to diagnose fast and accurately, but also to listen to the patient, to understand him by heart, to help in every way is equally important. The tireless battle begins with this active medical position, sometimes consuming both physical and spiritual strength for the return of man to life in the broadest sense. Is not that the high humanitarian spirit of the Hippocratic oath, which the doctors accept from generation to generation?

The appearance of the doctor is most important. The sad and unfriendly face of the physician depresses the patient. He is waiting for the empathy, and meets boredom, waiting for friendliness and feels the rush, waiting for participation, but runs into a covenant, and eventually it strikes the psychological state of the patient.

No less important part of the ideological and moral education is the establishment of good-hearted relations in the medical team.

Interestingly, how many excellent notions origin from a simple Russian word «good»: honesty, integrity, kindness and good nature. For the Soviet doctor these concepts are the norm of companion relations in the team. But if there are none of them, if they are shaken, then the patients suffer. Conceit, arrogance, disrespect to the comrades, unfortunately, are still found in the behavior of some doctors, so it is necessary to strengthen moral education in the collectives of medical institutions.

In the light of the mentioned above the question of the so-called medical errors deserves special attention and the doctors' relation to them. «Life is short, art is long, opportunity is soon-transient, experience is deceiving, it is difficult to judge", wrote Hippocrates, "human needs force us to decide and act. But if we are demanding of ourselves, not only success but the error will be a source of knowledge».

It is unlikely that we will find a doctor who could in good conscience say that in his medical life he did not make any medical error.

The doctor, of course, must avoid the mistakes. But having made one the doctor should not hide from them. Only the weak in spirit are afraid to admit a mistake. To recognize them means to find the strength to fix them quickly and decisively, not to harm, but for the benefit of the afflicted person.

The most terrible evil to the patient which may come from a man who has put on doctor's gown is indifference.

Indifference origins from the old world of selfishness, disunity and self-interest, which Lev Tolstoy called the spiritual meanness. For us, the doctors, the combat against the indifference has a twofold significance. It is about the intolerant, strained relation to the indifference of the doctor to whom a person trusts the ultimate value - life. The fight against the social indifference is ultimately a struggle for physical and mental health of a person.

*Academician Zarifa khanum Aliyeva*
*Collection of Scientific Papers*
*Baku, «Azerbaijan» publ., 1998, p.179-184*